# YAZIÇI İDEALI

## *Ağarəhim Rəhimovun elim-pedaqoji və bədii-fəlsəfi yaradıcılığının ümdə hədəfləri*



Müstəqillik dövrü elmi, pedaqoji və ictimai mühitdə unikal adlanmasıyla diqqəti cəlb edən Bakı Ali Pedaqoji Qızlar Seminariyası (indiki Bakı Qızlar Universiteti) və onun təsisçisi pedaqoji elmlər doktoru, professor Ağarəhim Rəhimov yeni tipli alternativ təhsil təşkilatçısı kimi tanınmağa başladı.

Özəl ali təhsil müəssisələrinin çox çətin təşəkkül mərhələsi keçməsi, həm təhsisçilər, həm də yeni formalaşan nomenklatur məmur təbəqəsi bu sahəyə yeni tipli təhsil məssisələri kimi yox, daha çox gəlir mənbəyi kimi baxmağa başladılar. Ona görə də bu müəssisələrə bir tərəfdən ortabab ziyalı dolanışıq məqsədilə, digər tərəfdən də bal tutub barmaq yalamaq üçün möhtəkirlər axışdı. Beləliklə, yaxşı məqsədlər üçün açılmalı olan bu tip tədris ocaqları getdikcə xalqın gözündən düşdü.

Bunlardan fərqli olaraq Bakı Ali Pedaqoji Qızlar Seminariyası isə Bakı Qızlar Universiteti adı altında 30 ildən artıqdır ki, maarifçilik fəaliyyətini uğurla davam etdirir. Bunun da bir neçə başlıca səbəbi vardır. Birincisi burada «gəlirli» ixtisaslara heç vaxt meyil olmamış, adından göründüyü kimi məqsəd gələcəyin vətənpərvət alicənab müəllimlərini daha da vacibi isə, ismətli gələcək ana tərbiyəçilərin hazırlığından ibarət olmuşdur. Bu missiya bu gun də uğurla davam etdirilir.

Şübhəsiz ki, hər bir özəl təhsil müəssisəsinin taleyi onun Qəyyumu və rəhbərindən birbaşa asılıdır. Bu günlərdə anadan olmasının 75 illik yubileyini sakit bir məcrada qeyd edən universitetin təhsisçisi Ağarəhim Rəhimov kimdir:

O, öncə uzun müddət Təhsil İnstitutunda şöbə müdiri, ana dili tədrisi üzrə metodist - dilçi, pedaqoji elmlər doktoru, professor olaraq çalışmışdır. Sonralar isə tanınmış alternativ ali təhsil qurucularından, bu sahənin peşəkarlarından biri olmuşdur.

Ağarəhim Rəhimov həm də ədibdir. Sosial proseslərin dərin müşahidəçi ziyalısı, ölkənin tanınmış sosioloq alimidir. Onun əsərlərinin başlıca qayəsini bir tərəfdən postsovet dövrü ictimai-humanitar düşüncədəki tarixi qəlibləri sındıran, ictimaiyyətşünaslıqdakı tarixi transformasiyanın başlıca kreativləri təşkil edir, digər tərəfdən də yanaşma tərzi, üslubu, ideyaya doğru saplanmış məntiqi, həmin məntiqdən doğan mühakimələrindən qaynaqlanan mükəmməl idrakı qənatələri, ictimai, mənəvi-əxlaqi düşüncələri, ardıcıl mütaliə bazası, ifrat həssaslıq və seyirdən qaynaqlanan vətəndaş marağının çözələnməsi, yazar olaraq iç dünyasının təlatümünü obrazlarının ətinə-qanına hopdurmaqla hamını saflaşdırmaya-katarsisə səsləyən ədəbi tribundur. Ağarəhim Rəhimov hər şeydən öncə həm də yeni tarixi-ictimai çağırışların cəsarətli publisisti, yazıçısı və ssenaristi kimi də cəmiyyətdə, xüsusilə mədəniyyət və incəsənət sahəsində də yetərincə tanınan ədəbi-ictimai simadır. Onun ədəbi mühitə gəlişi ilə ictimai-fəlsəfi mütitə gəlişi paralel getmişdir. Bu mənada ədəbi mühitə təsiri ilk baxışda eyhamla qarşılansa da, əsərlərində irəli sürdüyü problemlər əslində cəmiyyətdəki tarixi transformasiyanın çağırışlarından qaynaqlanırdı. Ədəbi mühit ənənəvi yazı üslubuna, köhnə mövzulara və ifadə etdikləri «ideyanın» restavrasiyasına köklədiyindən bu «təzə»nin nə demək istədiyinə və kimliyinə laubəli baxışlarla diqqət yetirsələr də sonralar od püskürən əsərlərin, onun başlıca qayəsini ehtiva edən adlanmaların, öncə Ermənistan-Azərbaycan münasibətlərində yaranan gərginliklərə həsr olunmuş "Vicdan məhkəməsi", "Uçurum", "Səfalət", "Qasırğa" əsərləri ilə ədəbi mühitə nümunə göstərən, eləcə də "Tbilisin oyunu", "Əl əli yuyar", "Daşqala əməliyyatı", "Dudəməli qalmaqalı", "Şərikli uşaq", "Xanımın desant batalyonu", "Ala qarğa", "Bazar hengaməsi" komediyalarının ruhuna hopmuş vətəndaşlıq hissi, hırıldatmaq yox, düşündürmək ruhu ilə bu janra tamamilə yeni nəfəs verən, "Xəyanət", "Əsgər anası", "Haray", "Cinayət yoxsa qətl" kimi dram əsərlərində içini yeyən sosial kataklizmlərə yeni prizmadan yanaşan, nəhayət, uşaq hekayələrində həyati reallığa müsbət mənada meydan oxuyan «Vüsalın qətiyyəti», «Nəvə dərsi», «Dostum Vüsal», «Aslanın səhvi», «Övlad dərdi», «Balaca Nicat» yeni tipli personajlar olaraq uşaq bədii təfəkkürünün inkişafına təsir etməkdədir. Onun iri həcmli bədii əsərlərinin adlanmaları da ayrı bir aləmdir, əsərlərində qaldırdığı ideyanın sanki məhək daşıdır. Əsərlərinin adlarına fikir verək: «Səfalət», «Girdab», «Kabus», «Qasırğa», «Qoşa qanad», «Ovlaq keçidi», «İkili dünyam», «Məhəbbət və Cinayət», «Qırmızı qar», «Canavar balası», «Qəzəb» və s.

O, böyük ədəbiyyata 500-dən çox elmi və publisistik məqalə, 50-dən artıq dərslik, monoqrafiya, kitab və kitabçanın müəllifi, müqtədir tədqiqatçı alim olmaqla gəlmişdi. Əvvəlcə ədəbiyyata gəlib alim olanlardan fərqli olaraq ona qədər o, bir dənə də olsun bədii əsər yazmamışdır. Ona görə də onun bədii əsərləri elmi əsərləri kimi sözün məntiqinə söykənir. Bədii əsərlərində yüksək ziyalı təfəkkürünün nəfəsi hakimdir. Sadə, həyatı məsələlərdən bəhs edən surətlərin dilindən sanki dürr tökülürdü. Onun «Fırıldaqçı Niftulla», «Mənim qəribə taleyim», «Tənha çinarın pıçıltıları», «Bir ömrün akkordları», «Kövrək qəlbin titrəyişləri», «Meteor parçası», «Taleyin hökmü» povestlərinin surətlərinin dili bu baxımdan ədəbi-bədii şedevrlərdir! Onun tədqiqatlarının zirvəsini nəhayət, bəşəri çağırışların fəal ictimaiyyətçi tribunu olaraq yetkin vətəndaşlıq mövqeyi ilə seçilən ziyalılıq təşkil edir. Onun əsərlərinin bir başlıca motivi də ənənəvi yanaşma kontekstində zamandır. Ona görə şüurun yetkinliyi zamanla uzlaşmırsa qəbahət şüurun özündədir. Bu mənada zamanın başlıca həmləsi şüurdur. Cəmiyyətlərdə baş verən başlıca nöqsanlardan biri də «Çay görməmiş çırmanmağımızdır». Yəni çox vaxt cəmiyyətlərdə baş verənləri şüur dərk etmir və ya qəbul etmir, bəzən də emosional daxili və xarici reallıqların təsiri ilə onu kor-koranə qəbul edib, onun əsirinə çevrilir. Kiçik toplumlara bu, xüsusən xasdır. Tarixi gələnəklərə söykənən mental dəyərlərin sosiuma hakimliyi yetərlidirsə hadisələrin məntiqi gedişini hesablamaq olur, yox əgər bu yodursa və ya bu prosesin oturuşmasına imkan verilməyibsə hər cür ziqzaqlı sosial-tarixi təlatümlərə hazır olmalısan.

Bu əsrdən çıxan ümumi qənaət belədir ki, bu gün dünyada ağlagəlməz inqilabi-radikal dönüş baş verməkdədir. Bunun ağrısını içinə çəkən əsasən mənəvi ekosistemdir. O, virtual texnologiyanın doğurduğu saysız hesabsız informasiya bolluğunda çabalayan insanı yeni qlobal çağırışlarla çınağa çəkir. Məsələn, «Səxavət» əsərində professor Asiman xanım görkəmli elm xadimi, pedaqoqdur. Ağarəhim müəllim bu mənada pedaqoq-alim olaraq əsərlərinin əksəriyyətində personajların ziyalılığına fikir verir, onların nitqinin, düşüncəsinin çoxmənalı tutumunu metodist alim kimi önə çəkir. Yeri gəlmişkən, bu romanın əsasında müəllifin "Vicdan məhkəməsi" pyesində də başlıca mənəvi-sosial kriteriya şəxsiyyətə, həqiqətə, vicdana, vətənə, xalqa, millətə ... bağlılıqdır. Bu, təkcə ziyalı obrazlarına xas deyil. «Ovlaq keçidi»ndə Qafar, «Ulu kəndim»də Yaqub, «Canavar balası»nda Yusif əslində geniş təhsil görməsələr də həyatın bişirdiyi insanlardır. Həyatın ədəb-ərkanında yoğrulmuş, həyata özünəməxsus baxış bucaqları olan bu adamlar necə də həyatı obrazlardır.

Öncə qeyd etdiyim bir neçə istiqamət üzrə öz yazıçı-ziyalı üslubuna sadiq qalan Ağarəhim Rəhimovun bütün ədəbi külliyyatının mahiyyətinin zirvəsində insan - vətəndaş - şəxsiyyət dayanır. Onu ədibliyə gətirən bir tərəfdən daxil olduğumuz geosiyasi məkanda XX əsrin sonlarında gedən dağılma, ondan sonrakı ağrılı-acılı yeni cəmiyyət quruculuğunun prioritetləri, bir tərəfdən də uzun müddət içimizi yeyən Qarabağ dərdidirsə, bir tərəfdən də virtual texnologiyaların və yeni dünya düzəninin doğurduğu qlobal tendensiyalardır. Ona görə də onun əsərlərinin ideya məzmununu özünəməxsus ziyalılıq üslubunun hakim olduğu bədii əsərlərin aydın, səlis dili süsləyir.

Onun tədqiqatçılarından olan Sevinc Rəhimovanın «Ağarəhimin bədii yaradıcılıq fəlsəfəsi» sonoqrafiyasından bir fikirlə davam etdirmək istəyirəm: "...Ağarəhim elm və ədəbi-bədii düşüncə adamı olduğundan dünyada baş verən tarixi-siyasi-psixoloji-sosioloji-mədəni-ictimai-siyasi-iqtisadi-fəlsəfi həyata müxtəlif mövqelərdən yanaşa bilən, topladığı fakt və detalları yerbəyer etməyi bacaran sənətkardır. O, bugünkü həyata öz lupasından baxmağı bacarır. Yeni insana yeni insani münasibətlərini elmi dəlillərlə, ədəbi-bədii təfəkkürün, orjinal yaradıcılıq prinsiplərindən yanaşır. Onun məqsədi ədəbiyyatın problemləri - cəmiyyətin əxlaqi dəyərlər sistemini, insani-ideoloji mövqeyi və münasibətlərini bədii əsərlərində işıqlandırmaqdan ibarətdir. Ədib insanı cahanşümul siqlət sanır. Ona özü də ruhani dəyər verir. Milli mənliklərini və şəxsiyyətlərini, həmçinin mühafizə cəhdlərini qabardır. Eyni zamanda, gerçək həyatın əxzi onun yaradıcılığının başlıca qayəsidir.(Sevinc Rəhimova. Ağarəhimin bədii yaradıcılıq fəlsəfəsi. monoqrafiya. Bakı 2022 səh 22)

Onun çoxşaxəli yaradıcılıq manerasının başlıca kreativini sözə ehtiram, sözün ilahi qüdrətinə inam, sözün, kələmın şövqündə, onun böyük mənasında yaradanla insan arasında əlaqə formasıdır. Onun "Allahla ünsiyyət, "Ölüm və ölməzlik", "Zəka sinfoniyası", "Qüdrətdən doğan nur" fəlsəfi esselərində insanın mənəvi davranış hüdudları, əzəli və əbədi dünyaya baxışı, ölüm və ölməzlik, zamanın, tarixi oxu və yaddaşı, "Qüdrətdən doğan nurun təntənəsi" (S.Rəhimova) göstərilir. Onun çoxşaxəli yaradıcılıq külliyyatına nəzərən sözlə yaradanın vəhdətinə söykənən aşağıdakı fikirləri də çox orjinaldır.

«Söz Allah-təalanın adıdır. O, Ulu tanrının özündən kanata çıxan milyonlarla enerji tellərindən biridir. Böyük yaradanla insan arasında əlaqə qurandır. Söz müqəddəs kitablar, səmavi - qədərdir. Söz insana məxsus olmaqla onun yaradıcı qüvvəsidir. Söz Allahla əlaqə formasıdır. Gərək ona əsl qiymətini verə biləsən!»

Beləliklə, Ağarəhim Rəhimovun çoxillik elmi-pedaqoji və ədəbi-fəlsəfi yaradıcılıqında aşağıdakı ümdə kreativləri diqqəti cəlb edir:

O, XX əsrin sonu, XXI əsrin əvvəlləri siyasi-tarixi transformasiya mərhələsinin önə çıxardığı ictimai sima, yeni tipli şəxsiyyətdir. O, alternativ ali təhsilin respublikamızda tətbiqi sahəsində ilkinlərindəndir.

Bir sıra "müəssisə rəhbərlərin" dən fərqli olaraq istər ədəbi-bədii, istər elmi-metodik, istər də ictimai-fəlsəfi tədqiqatları öz qəlminin məhsuludur, ictimai statusundan sui istifadə edən deyildir. O, yeni tarixi-transformasiya mərhələsində cəmiyyətdə baş verən kataklizmləri cəsarətlə bədii ədəbiyyatın mövzusuna çevirməklə fəal vətəndaşlıq mövqeyi nümayiş etdirən edibdir.

O, Cəmiyyətdə baş verən dəyişmələrin yeni quruculuq prosesindən qaynaqlanan dəyərlər sistemini psixoloji və sosioloji aspektdən təhlil və tədqiq edən filosof tribundur.

O, bir çox tədris-metodiki mahiyyətli əsərlərin, monoqrafiyaların, vəsaitlərin müəllifi olaraq həm də öz mövqeyi olan, prinsipal pedaqoq alim-ziyalıdır.

Fikirlərimizi görkəmli ədəbiyyatşünas, professor Bədirxan Əhmədovun aşağıdakı sözlərilə yekunlaşdırıram.

"Ağarəhim istər bədii nəsrində, istər dramaturgiyasında, istərsə də ssenarilərində bir sosioloq, filosof kimi çıxış edir, onun əsərlərinin əsas sujet xəttində cəmiyyət hadisələri və İnsan problemi qoyulur, çağdaş cəmiyyəti məşğul edən hadisə və problemlərə geniş yer verilir. Bu əsərlərin yazılmasından gedən zaman yazıçının əsərlərinin uzunömürlü, yazan edir. Bu əsərlərin yazılmasından keçən zaman yazıçının əsərlərinin uzun ömürlülüyünün sübutudur. Bizə isə yalnız Ağarəhimə can sağlığı, uzun ömür və yaradıcılıq uğurları arzulamaq qalır".

**(Bədirxan Əhmədov «Ədəbiyyat və incəsənət qəzeti» 21 oktyabr 2023-cü il №405430)**

***Həsən BAYRAMOV,***
***Bakı Qızlar Universitetinin «Pedaqogika» kafedrasının müdiri, pedaqogika elmləri doktoru, professor***